# QARABAĞ BİZİMDİR




Demişdim, səbirli ol sən, ay ana,
İnan, qəlbən, ruhən inan ki, mənə
O şəhid oğlunun aslan dostları -
İgid, vətənsevər, şanlı əsgərlər
Bizim Qarabağı azad eyləyər.
Eşitmiş deyilsən, unutdun məgər?
Şəhid qanı yerdə qalmaz, deyirlər.
O gün gəldi, doldu səbir kasası,
Silaha sarılmaq oldu sonrası.
Qolları çırmayıb ”Vətən sağ olsun”
Hayqıraraq getdi məskənin alsın,
Torpaqda aslanlar, göydə qartallar,
Nər oğlu nər kimi alov saçalar,
Gülləbaran edib mərmi atalar,
Əzələr, qıralar yağı belini,
Hə, azad edələr doğma elini.
Yerdə qoymayalar axmış qanları,
Alalar o mənfur, qara canları.
Hər birisi qoçaq, igid, qəhrəman,
İşğalçı düşmənə vermədi aman.
Qovuldu torpaqdan yadın dığası,
Əzəldən bizik bu yurdun ağası.
Cəmisi qırx dörd gün çəkdi bu savaş,
Hər biri düşmənə fəlakət, təlaş.
Mərmilər yağıştək yağdı başına,
İlan tək girdi yer altda sığına.
Azad oldu suyu bol Suqovuşan,
Yaddan təmizləndi barlı Zəngilan.
Xan Araz eşitcək əsgər səsini
Artırdı azadlıq ümid, əzmini.
Ordumuzu görcək tağ Xudafərin
San ki, bir an dilə gəldi: - Afərin!
Gözü yolda qalmış daşqın Həkəri
Qəlbən salamladı bizimkiləri.
Topların səsindən coşdu Bərgüşad,
Dığalar qaçanda oldu necə şad.
Sərsəng su anbarı qayıtdı bizə,
Doyunca su axar tarlaya, düzə.
Orduya şad oldu meyvəsi dadlı,
Şəfalı bulaqlı qədim Qubadlı.
Əl-qol döyüşüylə alındı Şuşa,
Alqış sənə əsgər, üzü ağ yaşa.
Xilasa qovuşdu uca Murovdağ,
Qurtuldu düşməndən böyük Qarabağ.
Vətən savaşıdır bizim bu döyüş,
Qələbəylə bitdi uğurlu yürüş.
Haqq işini vurdu zəfərlə başa
Azərbaycan oğlu, səni min yaşa.
Azad oldu bir-bir ocaqlarımız,
Hər yerə sancıldı bayraqlarımız,
Onunla duyuruq qürur hamımız.
Bu aylı-ulduzlu, üçrəngli bayraq
Qarabağda daim dalğalanacaq.
Şəhidlərin qanı yerdə qalmadı,
Müzəffər ordumuz qisasın aldı.
Dəmir yumruğumuz altdakı dığa
Çətin ki, bir daha qalxa ayağa.
Ay ana, deyirlər şəhidlər ölməz,
Müqəddəs torpaqdır Vətən, bölünməz.
Vətəni olmayan bilməz qədrini,
Torpaq dəyərini, çiçək ətrini.
Vicdansızlar qanmır nə utanc, ayıb,
İmkan olan yeri vurub dağıdıb.
Dinc şəhərlərə də mərmi atıblar,
Cinayət törədib, qana batıblar.
Gəncədə binalar, evlər dağılıb,
Uşaqlar anasız, atasız qalıb.
Görən deyir, sanki Xirosimadı,
Ağdam olsa da bu şəhərin adı.
İndi Stalinqrada bənzəyir Tərtər,
Sakinləri xoşbəxt, abad o şəhər.
Torpaqlarımızda yaşayıb bizim,
Yüz illərcə yeyib çörəyimizi,
Sonra yurdumuzdan istəyirdilər
Biryolluq qovsunlar, beləmi məgər
Borcunu qaytarır insana insan?
Gərək ki, nə qədər nankor olasan?!
Yox imiş bunların həya, arları,
Tanrı bağışlarmı ahu-zarları?
Deyirlər hər şeyin əndazəsi var,
Belə qoymaz qalsın ərən oğullar.
Dağıdılmış körpü, yollar, cığırlar
Abadlığa yenə, tezliklə çıxar.
Xaraba qoyulmuş şəhərlər, kəndlər,
Əməkçi əlllərlə gülzara dönər.
İç-içə döyünər bu saf qəlbimiz,
Daim birgə olar quran əlimiz.
Qurub yaradandır bizim xalqımız,
Vətənə bağlıyıq qəlbən hamımız.
Xalqla ordu birgə dəmir yumuruq,
Düşməni, nankoru zərblə vururuq.
Xalqımız çox sevir şanlı ordunu,
O göz bəbəyitək qorar yurdunu.
Güclüdür, mətindir şanlı ordumuz,
Azaddır, xoşbəxtdir ana yurdumuz.
Qarabağ bizimçün döyünən candır,
Qarabağ bir parça Azərbaycandır.
Qarabağ bizimdir, bizim olacaq!
Qarabağ əbədi bizim qalacaq!
Qarabağ əbədi bizim qalacaq!

***Rəsul RƏXŞANLI***